**Nəbizadə Xəyalə Nəbi qızı**

# HÜRUFİLİYİN ORTA MƏKTƏBDƏ ŞAGİRDLƏRƏ ÖYRƏDİLMƏSİ YOLLARI

İmadəddin Nəsimi qüdrətli bir şair, yaradıcılığı ilə bütün dünyaya səs salan,insan ləyaqətinə,onun qüdrətinə, ucalığına olan yüksək inamı tərənnüm edərək şeirlərində insanı həyatın yaradıcısı, həyat gözəlliklərinin əsəs mənbəyi kimi vəsf edən böyük insanpərvər mütəfəkkirdir.

Nəsimi hürufi şair olmuşdur. Nəsiminin hürufilik ideyalarının tədrisinə orta məktəb kitablarında ayrıca saat ayrılmamışdır. VIII sinifdə Nəsiminin "Ağrımaz" qəzəli tədris olunsa da onun həyatı, həmçinin hürufilik haqqında şagirdlərə məlumat verilmir. Nəsiminin həyatı haqqında şagirdlər X sinifdə nisbətən geniş məlumat əldə edirlər.

Dərs fəal/interaktiv təlim şəraitində aparılır. Fəal/interaktiv dərslər şagirdləri ruhən dərsə bağlayan, onları axtarışa, düşünməyə, fikir mübadiləsi aparmağa, müstəqil düşüncəni və yaradıcı təfəkkürü inkişaf etdirməyə sövq edən maraqlı dərs formalarından biridir. Müəllimdən yüksək bacarıq və qabiliyyət tələb olunur. O, Nəsiminin həyatı, hürufilik haqqında dərin biliyə malik olmalı, istiqamətləndirici suallarla dərsdə fəallıq yaratmalıdır.

Araşdırmaya "Nəsimi barədə bildiklərinizi yada salıb yığcam şəkildə müzakirə aparın" tapşırığı ilə başlanılır. Şagirdlərin fikirləri dinlənilir. Dərslikdə Nəsiminin həyatı haqqında yığcam məlumat verilmişdir. Bu mətndə hürufiliyin mahiyyəti, yaranmasının ictimai səbəbləri yığcam şərh olunmuşdur. Nəsiminin hürufiliyə meyl etməsinin, öz əqidəsinə bütün ömrü boyunca sadiq qalmasının səbəbləri əhatəli izah olunmamış, bununla da şagirdlərin müstəqil araşdırma aparmalarına şərait yaradılmışdır.

Müəllim özü də hürufilik  haqqında şagirdlərə qısa məlumat verir. Qeyd edir ki, Nəsimi hürufi ideyalarının təbliğinə 1386-cı ildən, hürufiliyin banisi F.Nəimi ilə tanışlığından sonra başlamış, özünə çəxlu tərəfdarlar toplamışdır.

Müəllim "hüruf" sözünün mənasını izah edir. Qeyd edir ki, "hüruf" sözü "hərf" sözünün cəmi olub, hərflər deməkdir. Hürufilər ərəb əlifbasının 28 hərfi və bu əlifbanın fars dilində işlənən 32 hərfini müqəddəs hesab etmişlər. Allahla insanın eyniliyini, Allahın insanda təcəlli etdiyini iddia edən hürufilərin əsas məqsədlərindən biri insan hüquqlarını müdafiə etmək, insanı əzən, sıxan, onu köləyə çevirən qanunlara, baxışlara üsyan olmuşdur. Hürufilərin fikrincə insan öz ucalığını, böyüklüyünü dərk etsə, Allah məqamına ucalsa dünyada zülm, acgözlük, paxıllıq və.s kimi mənfi sifətlərdən heçbir əsər-əlamət qalmaz, qanlı müharibələrə ehtiyac olmaz.

Nəsiminin hürufilik baxışlarının bədii-fəlsəfi ifadəsinə xidmət edən nümunələr az deyil. Belə nümunələrdən biri də X sinifdə 3 saat ərzində tədris olunan, insanın böyüklüyünü, ucalığını, ilahi varlıq, həm insan, həm də ilahinin timsalı olduğunu tərənnüm edən "Sığmazam" qəzəlidir.

Ənənəvi təlimdən fərqli olaraq fəal/interaktiv təlimdə şeirin oxusu başqa mahiyyət daşıyır. Bu şagirdin yalnız şeiri oxuyub əzbərləməsi ilə bitmir. Bu zaman o şeirin mahiyyətini, sənətkarın bizə çatdırmaq istədiyi fikri aydın dərk edir. Burada müəllimin rolu danılmazdır.

Şeirin oxusu müxtəlif formalarda aparıla bilər. Şagirdin fərdi oxusu daha məqsədəuyğundur. Şagird şeiri dərslikdəki izahı ilə oxuyur (İzah Ə.Səfərliyə məxsusdur) Bu prosesdə, həmçinin tanış olmayan, çətin sözlərin mənasının aydınlaşdırılması həyata keçirilir. Yaranan bütün çətinliklər müəllimim istiqamətləndirici sualları ilə aradan qaldırılır.

Oxuya ayrılan vaxt bitdikdən sonra tədqiqat mərhələsi başlayır. Şagirdlər kiçik qruplarda birləşirlər. Hər qrupa tədqiqat sualı verilir.

I qrup "Qəzəl hansı mövzuda yazılıb?"- sualı ilə bağlı tədqiqat hazırlayır. Müəllim özü də əlavələr edir. O qeyd edir ki, "Sığmazam" qəzəli Nəsiminin təriqət şeirlərindən, hürufilik ideyalarının ən güclü təbliğ olunduğu şeirlərindən biridir. Həmçinin "Sığmazam" qəzəli Nəsiminin dünyagörüşünü, yaradıcılığını səciyyələndirən bir poetik nümunə kimi də diqqəti cəlb edir.

II qrup "Şeirin ideya-məzmunu üçün önəmli olan fikirlər hansıdır?"- sualı ətrafında tədqiqata başlayırlar.

"Sığmazam" qəzəli I şəxsin dilindən deyilən monoloq təsiri bağışlayır. Şairin lirik qəhrəmanı qətiyyətlidir. Fikirlərinin düzgün olduğuna əmindir. Məhz buna görə də, lirik qəhrəman söylədiklərini hökm şəklində dilə gətirir. Onda iki cahan-maddi və mənəvi aləm sığsa da, özü bu aləmə sığmır. O heç nədən çəkinmir. Allaha və bütün yaradılmışlara aid nə varsa, hamısının özündə təcəlli etdiyini bildirir.

Gərçi bugün Nəsimiyəm, Haşimiyəm, Qüreyşiyəm
Məndən uludur ayətim, ayətə, şanə sığmazam.

O uludur. Başlanğıcı zatla-varlığın sahibi ilə başlanır, bütün var olan hər şey onun əlamətidir və o, bu nişanla tanınır, ancaq özü həmin nişana sığmır. Qəzəlin üzərində düşündükcə lirik qəhrəmana məxsus digər xüsusiyyətlər də ortaya çıxır.

III qrup "Qəzəldə bədiiliyi təmin edən mühüm vasitələr hansılardır?"- suali üzrə tədqiqat hazırlayırlar. Müəllim tədqiqatın gedişində istiqamətləndirici suallar verməklə, şagirdlərin çətinliyə düşməsinə, heç bir qaranlıq məsələlərin qalmasına şərait yaratmamalıdır.

Şagirdlər tədqiqatda qeyd edirlər ki, "Sığmazam" qəzəlində bədiiliyi təmin edən vasitələr çoxdur. Qəzəldə səslərin, xüsusilə samitlərin təkrarı xüsusi ahəng yaratmışdır. Burada işlənən bədii təsvir və ifadə vasitələri qəzəlin bədii keyfiyyətinin artırılmasına təsir etmişdir. Həmçinin, qəzəl əruz vəzninin rəcəz bəhrində yazılmışdır. Rəcəz bəhri öz təmtəraqlı ahəngi ilə fərqlənir, qəzəlin ümumi məzmununa daha da ahəngdarlıq qatır.

Qəzəlin tədrisində məzmun üzrə iş zamanı hər beytdə ifadə olunmuş fikrin ətraflı qavranılmasına, lirik qəhrəmanın hiss və düşüncələrinin aydınlaşdırılmasına daha çox önəm verilməlidir.

Hürufilik ideyalarının təbliğ olunduğu "Sığmazam" qəzəlinin tədrisi zamanı müəllim digər bir vasitədən da istifadə edə bilər. Bu vasitə müəllimin nisbətən fəal olmasını tələb edir. Belə ki, müəllim qəzəlin ilk 4 beytinin izahlı oxusunu öz üzərinə götürür. Şagirdlər də müəllimin izahlı oxusunda fəal iştirak edirlər. Şeirdə əksini tapmış mühüm mənəvi

dəyərlərin müəyyənləşdirilməsi üzrə iş aparılır. Bu zaman müəllim oxu prosesində tanış olmayan sözlərin, məcazların mənasını izah edir, aydınlaşdırır. "Sığmazam" qəzəli hürufi terminlərlə zəngin olduğundan oxu prosesində müəllimin izahı mütləqdir.

Məsələn, birinci beyt müəllim tərəfindən oxunur:

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri laməkan mənəm, kövnü-məkanə sığmazam.

Müəllim beytin izahını verir. Qeyd edir ki, Nəsimiyə görə insanda iki dünya sığır, ancaq o, bu dünyaya sığmır. Burada "iki cahan" ifadəsi ilə maddi və mənəvi aləm, "gövhəri-laməkan" dedikdə isə birbaşa Allahın özü nəzərdə tutulur. Dini təsəvvürdə məkansız gövhər Allaha verilən obrazlı ünvanlardan biridir. Əgər şair özünü, yəni insanı məkansız gövhər adlandırırsa, bu yolla özünün Allahın zərrəsi olduğu fikrini irəli sürür. Beləliklə,insanın varlığa və məkana sığmadığı sübut və dəlilə ehtiyac olmayan bir həqiqət şəklini alır.

Mövzunun tədrisi bu yolla davam etdirilir, aparılan işlər yekunlaşdırıldıqdan sonra qiymətləndirmə aparılır.

Hürufiliyin orta məktəbdə tədrisi Nəsiminin yaradıcılığı, onun yaşadığı mühit haqqında şagirdlərdə daha dolğun təsəvvür yaratmağa müəyyən imkanlar açır.

**İstifadə olunmuş ədəbiyyat**

1. Araslı H. İmadəddin Nəsimi. Bakı, Azərnəşr, 1972.
2. Babayev Y. Təriqət ədəbiyyatı: sufizm, hürufizm. Bakı, Nurlan, 2011
3. Babayev Y. XIII-XIV əsrlər ana dilli lirik şeirimizin inkişaf yolu. Bakı, Elm və təhsil, 2009

**Xülasə**

Nəsimi hürufi şairdir. Onun həyatı, yaradıcılığı,
hürufilik ideyaları bizim bədii fikir tariximizdə silinməz iz qoymuşdur. Belə bir sənətkarın orta məktəbdə tədrisi də şübhəsiz ki, danılmazdır. Nəsimi irsinin tədrisi orta məktəbdə fəal/interaktiv təlim şəraitində həyata keçirilir. Nəsiminin hürufi ideyalarının tədrisi də şagirdlərin Nəsimi haqqında daha dərin biliyə yiyələnmələri üçün çox geniş imkanlar açır. Şagirdlər tədqiqata, araşdırmaya cəlb olunur, bununla da öz yaradıcı təfəkkürlərini inkişaf etdirirlər.

**РЕЗЮМЕ**

Насими-поэт хуруфизма. Его жизнь, творчество, хуруфические идеи оставили незабываемые следы в нашей литературной истории. Обучение этого человека в средней школе бесспорный. Наследствие Насими обучается в средних школах активно и интерактивно. Обучение идей хуруфизма Насими создает школьникам большие возможности глубокого изучения жизнъ Насими. Школъники привлекаются обучении, исследованиям и тем самым развивают свое творческое мышление.

**SUMMARY**

4. Nasimi is hurufi poet. His life, ouevre, hurufi ideas left an indelible trace in our literary history. Surely, teaching of such a poet at middle school is undeniable. The teaching of Nasimi's inheritage realizes at schools actively/interactively. Also teaching of Nasimi's hurufi ideas creates extensive opportunities to learn about him in depth. Students are involved isvestigation and research in this way they improve their creative ideas.

RƏYÇİ: dos.E.Vəliyeva